## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

https://doi.org/10.59849/3006-1342.2025.2.102
UOT 94(479.24)

*Samirə Əliağa qızı Qasımova*
*AMEA Gəncə Bölməsi*
*ADAU, İctimai fənlər kafedrası*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: samira.qasimova82@mail.ru*
*Orcid: 0000-0002-8736-3909*

# GƏNCƏ ZƏRGƏRLİK SƏNƏTİNİN İNKİŞAFI VƏ İSTİFADƏ OLUNAN BƏZİ İSTEHSAL ÜSULLARI HAQQINDA

*Məqalədə Gəncədə zərgərlik sənətinin inkişafından və istifadə olunan bəzi istehsal üsullarından bəhs olunur. Yazılı mənbələr və arxeoloji tədqiqatlar zamanı əldə olunmuş bəzək nümunələrinə əsasən müəyyən olunmuşdur ki, dekorativ-tətbiqi sənətin inkişaf etmiş sahələrindən olan zərgərlik sənəti Gəncədə hələ qədim dövrlərdən yaranmış və orta əsrlər dövründə də digər sənət sahələri ilə yanaşı öz inkişafını davam etdirmişdir. Gəncədə orta əsr şəhərinin yerində aparılan arxeoloji qazıntılar zamanı tapılan çoxlu zərgərlik sənəti nümunələri (həm də məişət əşyaları), zərgərlik sənəti məhsullarının çeşid çoxluğu və istifadə olunan istehsal üsulları şəhər ustalarının yüksək sənətkarlığını göstərir. XIX əsrin ortaları - XX əsrin əvvəllərində Gəncə ustalarının hazırladıqları şəbəkəli boyun, sinə və baş bəzəkləri bu günədək insanı valeh edir.*

*Açar sözlər:* Gəncə, dekorativ-tətbiqi sənət növü, zərgərlik sənəti, istehsal üsulları, arxeoloji tədqiqatlar

Qədim dövrlərdən başlayaraq zərgərlik istehsalı Azərbaycanda dekorativ-tətbiqi sənətin ən inkişaf etmiş növlərindən biri olmuşdur. Zərgərlik əşyaları geyimin ayrılmaz hissəsini təşkil etmiş, eyni zamanda geyimləri tamamlamaqla geyimə bədii dolğunluq və estetik gözəllik də verirdi. İnsanlar zərgərlik məmulatları istehsalında qiymətli metallarla bərabər, qiymətli daşlardan, yarımqiymətli və süni yolla hazırlanan daşlardan isifadə edərək həm özlərini, həm də məişətini gözəlləşdirmək üçün istifadə etmişlər. Eyni zamanda sümükdən, buynuzdan və s. qiymətli olmayan metallardan da bəzək əşyaları düzəldilirdi. Təbii ki, bütün bunlar insanların estetik zövqünün formalaşdırılmasında başlıca rol oynayırdı.

Dövrümüzə gəlib çatmış çoxsaylı bəzək əşyaları qədim Azərbaycan zərgərlərinin yüksək sənətkarlıq səviyyəsinin göstəricisidir. Ölkə ərazisində qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ e.ə. II minillikdə tuncdan zinət əşyaları düzəldib öz həyat və məişətlərində istifadə edirmişlər [6, s. 5]. E.ə. VIII-VII əsrlərə aid olan Urmiya gölünün cənub-şərqində yerləşən Ziviyədən tapılan qızıl bilərzik, təsvirli qızıl kəmər, qızıl sinəbənd və s. bu dövrdə tarixi Azərbaycan ərazisində bəzək elementlərindən geniş isitfadə edilməsini təsdiqləyir [8, s. 77].

Aparılan tədqiqatlardan aydın olur ki, Qafqaz Albaniyasında zərgərlik sənətinin çiçəklənməsi eramızın ilk əsrlərinə təsadüf etmiş [9, s. 97], orta əsrlər dövründə bu qədim sənət növü tərəqqi etmiş, Gəncə, o cümlədən Qəbələ, Mingəçevir, Bakı, Şamaxı, Naxçıvan, Beyləqan, Şabran kimi sənətkarlıq mərkəzlərində bəzək-zinət istehalı sahəsi hərtərəfli inkişaf etmişdir. Arxeoloji qazıntılar nəticəsində müxtəlif materiallardan (mis, tunc, dəmir, qızıl, gümüş, bürünc, şüşə, gil) hazırlanan, çoxçeşidli istehsal texnologiyaların vasitəsilə (döymə,

tökmə, yonma, burma-eşmə, lehimləmə, bəndetmə, zərbetmə və s.) hasilə gətirilən rəngarəng çeşidli bəzəklər (sırğa, üzük, bilərzik, sinəbənd, asma möhür, medalyon, sancaq, kəmər-toqqa və s.) orta əsrlər dövrünün bəddi sənətkarlıq haqqında geniş təsəvvürləri yaradır [3, s. 175].

Azərbaycanın elm, mədəniyyət mərkəzlərindən olan Gəncədə, orta əsr şəhərinin yerində aparılan arxeoloji qazıntılar zamanı tapılan çoxlu zərgərlik sənəti nümunələri (həm də məişət əşyaları) və zərgərlik sənəti məhsullarının çeşid çoxluğu şəhər ustalarının yüksək sənətkarlığını göstərir. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş və əsasən möhürləmə üsulu ilə işlənmiş bəzək şeyləri öz sadə formasına görə diqqəti cəlb edir. Kiçik şara bərkidilmiş halqa şəkilli sırğalar, əqiq qaşlı, qaş yeri qıvrım naxışla möhürlənmiş üzüklər bu dövrə aid edilən zərgərlik sənəti nümunələrindəndir [7, s. 82]. Təbii ki, Gədəbəy, Kəlbəcər, Qazax bölgələrində əqiq yataqlarının olması, Gəncədə əqiq qaşlardan bir xammal kimi istifadə etməyə imkan vermişdir [14, s. 19]. Yeri gəlmişkən qeyd edək ki, Qafqazda ta qədimdən bu daşın ecazkar gücünə inam olmuş, dövrün zərgərləri sırğa düzəldərkən müxtəlif rəngli daşların yaratdığı estetik təsir gücündən istifadə etməyə çalışmışdılar. Sallama qızıl tanalar çox vaxt qaş üçün işlədilən daşların müxtəlif formalarını nümayiş etdirmək məqsədilə hazırlanırdı. Üçkünc, ellipsvari, dairəvi, düzbucaqlı və digər həndəsi formalı rəngarəng daşlar sırğaların dekorativ-bədii şəklini müəyyənləşdirirdi. Bununla yanaşı tədricən zərgərlik məhsullarının kompozisiyası sadələşsə də çeşidi artırdı. “Yarpaq” sırğa ürək formasını alır, qaşın yerləşdirildiyi çərçivənin yanlarında hər birinə muncuq salınmış dörd qızıl qarmaqcıq bərkidilirdi. Bəzən zərgərlər başqa bədii-texnoloji üsuldan da istifadə edirdilər. Beləki daşı çərçivəyə salmaqla, onun plastik formasını və rəngini daha qabarıq nəzərə çarpdırırdılar. Əgər əvvəllər qaş qızıl məmulatının ayrı-ayrı quruluş elementlərinin bədii formasını daha qabarıq göstərmək məqsədilə qoyulurdusa, sonralar metal detallar daşın formasından asılı olmağa başladı [5, s. 111].

Sırğalar tunc, gümüş və qızıldan hazırlanmaqla materialına görə üç qrupa bölünürdü. VI-VII əsrə aid şəhərdə ucları açıq halqa formalı sırğalar tapılmışdır ki, əksəriyyəti tunc məftildən olmaqla qulağa keçirilən hissə bir qədər içəriyə doğru qatlanırdı. Gəncədə bu tip sırğaların digər növü olan iki cüt tunc sırğaya da rast gəlinib [14, s. 15].

Ümumən orta əsrlər dövründə bəzək əşyaları gəzdirilməsi və geyilməsinə görə boyun, qol-barmaq, baş və libaslara bənd olan bəzəklər olmaqla 4 qrupa ayrılırdı ki, Gəncə ustaları bunların hər birindən hazırlayırdılar. Qadın zinətləri arasında baş bəzəklərindən (cığcığa) çox istifadə edilmişdir. Gəncədə məhəlli zərgərlik mərkəzlərində “cıqqa” adla bəlli olan tac zəmanəmizədək gəlib çatmış baş bəzəklərinin ən arxaik növlərindən olmuşdur.

Bəzən sosial mənsusubiyyətin göstəricisinə çevrilmiş baş zinətlərinin Azərbaycanda müxtəlif tiplərinə təsadüf edilir. Kübar qadınlar, həmçinin, tüccar əhli arasında dəbdə olan tac əsasən toy-nişan zinəti sayılırdı. Bununla yanaşı, tac vaxtilə həm də hakimiyyət rəmzi kimi, hökmdar libasının zəruri ünsürünə çevrilmişdi. Ənənə halına düşmüş rəsmi qaydaya görə, hökmdar hakimiyyət taxtında əyləşərkən, xüsusilə hökm verən zaman onun başında mütləq tac olmalı idi. Dairəvi formada möhkəm sağnağa malik çələngi xatırladan bu zinət tipinin bədii mahiyyətini nəzərə çarpdıran başlıca nəqş ünsürləri onun ön hissəsində cəmləşdirilirdi.

Gəncədə qadınların ən çox istifadə etdiyi bəzək əşyalarından biri də boyunbağılar olmuşdur. Boyun bəzəkləri ən geniş yayılmış zərgərlik məmulatı idi (sinəbənd, boğazaltı, çiçək, qarabatdaq və s.). Bu tip bəzəklər qiymətli muncuq, mirvari, qızıl və gümüşdən hazırlanırdı. Burada “xirtdəklik” adla bəlli olan qızıl boyunbağıları da yayılmışdır [2, s. 394].

Qeyd edək ki, son orta əsrlərdə Gəncədə metaldan bəzək nümunələri, həmçinin məişət avadanlığı və silah hazırlamaq işi xüsusilə inkişaf etmişdi. Dükanlar və sənətkar emalatxanalarında göz qabağındaca misilsiz gözəllikdə qızıl və gümüş bəzəklər hazırlanırdı [11, s. 5]. Ümumən həmin dövrdə Azərbaycan sənətkarlarının hazırladığı silah (xəncər, qılınc, qalxan) və zirehli geyimlər (dəbilqə, dirsəklik və s.) xarici ölkələrdə xüsusilə məşhurlaşmışdı

[3, s. 299]. Bakı, Moskva, Sankt-Peterburq və eləcə də bir çox xarici ölkə muzeylərində (xüsusilə Bern Tarix Muzeyində) bu əsrlərdə Azərbaycanda düzəldilmiş bir çox bədii metal nümunələri saxlanmaqdadır [7, s. 185].

Orta əsrlərdə zərgərlik nümunələrinin keçmiş irslə üzvi bağlılığını bu əsrdə hazırlanmış qadın və kişi kəmərləri xüsusilə əyani surətdə təsdiqləyir. Tədqiqatlar göstərir ki, hətta kəmərlə onu gəzdirən şəxsin vəzifəsini, var-dövlətini, dini əqidəsini, milliyyətini və hətta yaşını müəyyənləşdirmək mümkün olurdu. XVIII əsrdə kəmər daha çox əməli səciyyə daşıyır, həm də sənət əsəri olan kəməri həm kişilər, həm də qadınlar taxırdılar. Kəmərlər fiqurlu və bəzəkli, bürünc, gümüş və ya qızıl hissələrdən hazırlanırdı. Qadınlar enli, kişilər isə nazik kəmərlər istifadə edirdilər. Qeyd olunan əsrdə Azərbaycanda ən geniş yayılmış kəmərlərdən biri "çərkəzi kəmər" idi. Bu kişi kəmərləri nazik meşindən hazırlanır, yanlarından ətəyə sallanan qotazları olurdu [12, s. 264].

Bədii metal sənəti sahəsində aparılmış araşdırmalar göstərir ki, XVIII yüzillikdə Azərbaycanda metaldan hazırlanmış məişət əşyaları, silah, zinət şeyləri əsasən 6 texniki üsulda (döymə, basma, qarasavad, şəbəkə, xatəmkarlıq və minaçılıq) bəzədilirdiki, bunlardan ən qədim və xeyli sadə olan döymə üsulunun daha çox inkişaf etdiyi şəhərlərdən biri Gəncə idi. Lakin sadəliyinə baxmayaraq bu üsul sənətkardan iti göz və böyük ustalıq tələb edirdi. Sənətkar əsasən çəkic və ucu nazik olan iti alətlələrlə işləməli idi.

Basma üsulu sənətkarlıqda döyməyə nisbətən irəli atılmış bir addım idi. Basmada az müddətdə daha keyfiyyətli, daha çox məhsul almaq olurdu. Burada əsas iş yaxşı qəlib düzəltməkdən gedirdi [6, s. 32]. Məhz bu baxımdan Azərbaycanın müxtəlif zərgərlik mərkəzlərində "basma", "basma qəlib", "çaxma" və ya "çaxma-qəlib" qəlibkarlıq adı ilə geniş yayılmışdır [13, s. 204]. Qəlibkarlıq məmulatı hazırlamaq üçün ilk növbədə müxtəlif naxış çeşnilərinə malik qəliblər düzəldilirdi [4, s. 378]. Gəncə, o cümlədən Bakı, Şamaxı qəlibkarlıq alətləri nümunələrinin müəyyən qismi müzeylərimizdə toplanmışdır [10, s. 7-8].

Azərbaycan zərgərliyində geniş yayılmış bəzək üsullarından biri olan qəlibkarlıqda Gəncə ustaları daha məşhur olmuşlar. XIX əsrin sonu -XX əsrin əvvəllərində qəlibkarlıq yaradıcılığında Gəncədə şöhrət qazanmış belə zərgərlərdən biri usta Ağamirzə Həsənov olmuşdur. O dayıları Hüseyn və Həmzənin zərgərlik irsinə hərtərəfli yiyələnmiş, təxminən yarım əsr müddətində zərgərlik etmişdir. Usta Ağamirzənin qızıldan hazırladığı zinətlər, bədii metal sənətinin başlıca sahəsini təşkil edir. O, Gəncə, eləcə də ətraf kəndlərdə qəlibkarlıq sənətinin bədii xüsusiyyətlərini davam etdirməklə yanaşı, həm də inkişaf etdirmişdir. Çökək naxışlı bürünc qəlibləri saya, sadə və mürəkkəb naxışlarla işləmiş, nəbati, zoomorf, astral, həndəsi naxış növlərinin dekorativ xüsusiyyətlərini kamilləşdirmişdir.

Burada naxışlar daş-qaş, ləl-cəvahirat, nəbati və kristalşəkilli dekorativ həndəsi fiqurlardan istifadə yolu ilə yaradılmışdır. Zinətlərin nəinki ümumi görünüşü, hətta onların kiçik sahəcikləri belə həmin vasitələrlə (qabarıq naxışlarla) üzvi şəkildə işlənmişdir. Tədqiqatçılar qeyd edir ki, bu cəhət yalnız Gəncə deyil, Bakı Naxçıvan zərgərləri üçün də səciyyəvi olmuşdur. Gəncə ustaları zinət motivlərini və yerliyini ornamental səpkidə bəzərkən nəinki çiçəklərin, hətta qabarıq naxışların bədii ahəngini pozmadan onun dekorativ ifadəliliyini qüvvətləndirmək üçün incisayağı naxış ünsürləri yaratmışlar. Hər bir məlumat hissəciyi və bütün qabarıq naxış ünsürləri kini incisayağılar da bədii ölçü tənasübünə uyğun şəkildə işlənmişdir.

Bədii tənasübü ustalar şərtiləşdirmə üsulu ilə yaratmışlar. Şərtiləşdirmə üsulu məmulatın bədii forma və quruluş xüsusiyyətini mahiyyət etibarilə ornamental şəkildə inkişaf etdirmişdir. Qəlibkarlar da real təsvir vasitələrini yeri gəldikcə bölüb xırdalamış, yaxud bir-birinə bənd etmiş, bütöv görünən bəzək səciyyəsində calamış və ya miniatürləşdirmişlər. Misal üçün çiçək yaxud düyməcik, bəzən də yarpaq mahiranə surətdə bəzəkli məmulata çevrilmişdir. Burada qəlibkarlar da zərgərlikdə yaradılmış ənənəvi bədii xüsusiyyətlərdən

ustalıqla bəhrələnmişlər. Usta Ağamirzənin hazırladığı “təsəkqabağı” (parçadan tikilən baş geyiminin adıdır. Qızıl pilələr onun üzərinə tikildiyi üçün baş zərgərlik bəzəyi də belə adlandırılmışdır) adlı nümunələr klassik bədii keyfiyyətləri özündə birləşdirən belə zinətlərə misal kimi göstərilir. Qəlibkar Usta Ağamirzə buynuza, butaya, çiçəyə, ayparaya, gülə, yarpağa bənzətdiyi qızıl təsəkqabağı motivlərini həndəsi və nəbati dekorda, ahəngdar formada naxışlamışdır. Gəncə də (Qarabağ, Şuşa, Qazax və Tovuz) qadınlar təsəkqabağı ilə alınlarını, xirdəkliklə boyunlarını bəzəyirdilər. Al qırmızı, yaşıl, abı qara, yaxud bənövşəyi rəngdə məxmər təsəkqabağına tikilən qızıl qəlibkarlıq motivləri qamətli gəlinlərin alnında kontrast dekorativ rəng imtizacında nəzərə çarpırdı [10, s. 10-11].

Digər bir üsul olan qarasavad əsasən gümüş üzərində işlənirdi, çünki gümüş qara fonda daha aydın görünürdü. Döyülmüş hamar gümüş üzərində cızma yolu ilə istənilən rəsm çəkilir, sonra onun ətrafı qara məhlulla örtülürdü. Bu üsulla daha çox ev avadanlığı və silahlar (qılınc və xəncərin əl tutan yeri) bəzənirdi. Ən çox inkişaf etmiş şəhərlərdən biri də Gəncə idi [6, s. 33].

Orta əsrlər dövründə şəbəkə üsulundan da istifadə edilmişdir. Bu üsulla kəmər, boğazaltı, bilərzik, sırğa kimi zərif zinət məmulatı hazırlanırdı. İstehsal texnologiyasına görə ən mürəkkəb iş prosesindən ibarət olan şəbəkə texnologiyasının ilk mərhələsi “məftilçəkmə” və ya “simçəkmə” adlanırdı. Tədqiqatlar göstərir ki, Azərbaycanda qızıl və gümüş vərəqdən simçəkmə əməliyyatının tarixi çox qədim dövrlərə gedib çıxır [1, s. 97]. XIX əsrin ortaları - XX əsrin əvvəllərində zərgərlik mərkəzi olan Gəncədə ustaların hazırladıqları şəbəkəli boyun, sinə bəzəkləri, daş-qaşlı qızıl telbasanı bu günədək insanı valeh edir. Əlverişli iqtisadi şəraitə malik ticarət yollarının qovşağında yerləşən Gəncədə, xalqın ənənələri, dini əqidələri, arzu və ideallarının simvolik ifadəçisi kimi meydana çıxmış Azərbaycan şəbəkəçiliyinin bir çox gözəl nümunələri hazırlanmışdır ki, bu da təsadüfi deyildir. A.Həsənov və başqa zərgərlər məşhur şəbəkəçi sayılırdılar [10, s. 12-15].

Lakin XIX əsrin sonlarında Rusiyada zərgərlik fabriklərinin meydana gəlməsi və sənaye üsuluna keçirilməsi Azərbaycan zərgərliyinin sonrakı inkişafına mənfi təsir göstərmişdir. Belə ki, texniki gerilik səbəbindən milli ucqarlarda dağ-mədən işinin zəif inkişafı xammal kasadlığının daha da gücləndirmişdir. Bununla belə, Azərbaycanın zərgərlik mərkəzlərinin məhsulları Şərq motivli milli koloritinə, forma kamilliyinə və naxış səlisliyinə görə, nəinki Avropa və Rusiyanın, habelə Qafqazın digər məhəlli zərgərlik mərkəzlərinin hazırladığı zinətlərdən yüksəkdə dururdu. Mütəxəssislərin fikrincə, bu zərgərlər öz sənətlərinin sirlərini kamil bilməklə avropalı həmkarlarından xeyli üstün idilər. Onların hazırladığı məmulatlar naxışlarının bədii məziyyəti və dekor ayrıntılarının səlisliyi baxımından insanı heyran edirdi. Avropanın yeknəsəq biçimli zərgərlik məmulatının kütləvi istehsalında tətbiq edilən hər cür cihaz və avadanlıqdan məhrum olan bu ustaların bütün sənət məhsulları hövsələli zəhmətin və mahir əllərin bəhrəsi idi [2, s. 404].

XX əsrin ortalarında xalq zərgərlik yaradıcılığında müasir həyatın kütləvi məişət tələblərini ödəyəcək yeni sənət nümunələri hələ yaradılmasa da, lakin milli ənənələrə əsasən zinətlər yenə də hazırlanır, özünün klassik formalara çevrilmiş bəzəkləri ilə Gəncə ustaları da əhalinin rəğbətini qazanır və zərgərlik məmulatının yerli bədii forma xüsusiyyətləri irsi səciyyədə təkrarlanırdı. Bu dövrdə Gəncədə “çaxma qəlib” üsulunda yaradırdılar [10, s. 40-46]. Ümumilikdə, XIX əsrin ortaları - XX əsrin əvvəllərində Gəncədə 24 zərgər, 33 nəfər zinət ustası fəaliyyət göstərmişdir [3, s.76]. Sovet dövründə qocaman xalq ustaları Gəncədə zərgərliyi davam etdirən, milli zərgərlik irsinə yaxşı bələd olan gənc ustalar yetişdirmişlər [10, s. 63].

*Nəticə*

Arxeloji tədqiqat materiallarından və etnoqrafik məlumatlardan məlum olur ki, zəngin ənənələrə malik zərgərlik sənəti Gəncə bölgəsində qədim zamanlardan başlayaraq inkişaf etmiş və tarixi bir yol keçmişdir. Arxeoloji tədqiqiatlar zamanı şəhər ərazisində tapılmış və dövrümüzədək gəlib çatmış çoxlu zərgərlik sənəti nümunələri, zərgərlik sənəti məhsullarının çeşid çoxluğu şəhər ustalarının yüksək sənətkarlığından xəbər verir. Belə ki, orta əsrlər dövründə bəzək əşyaları gəzdirilməsi və geyilməsinə görə boyun, qol-barmaq, baş və libaslara bənd olan bəzəklər olmaqla 4 qrupa ayrılırdı ki, Gəncə ustaları bunların hər birindən yüksək peşəkarlıqla bəzək əşyaları hazırlayırdılar. Şəhər ustalarının zərgərlikdə istifadə edilən döymə, basma, qarasavad, şəbəkə kimi istehsal üsullarından istifadə edərək hazırladıqları bəzək nümunələri əhalinin rəğbətini qazanırdı. Onlar eyni zamanda Gəncə ətrafı kəndlərdə də zərgərlik sahəsinin bədii xüsusiyyətlərini davam etdirir, həm də bu qədim dekorativ tətbiqi sənət növünü inkişafına töhfə verirdilər.

ƏDƏBİYYAT

1. Avşarova İ.P. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məlumatı (e.ə. XIV-VII əsrlər), Bakı, "Nurlan", 2007, 190 s.
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild.Bakı, "Şərq-Qərb", 2007, 544 s.
3. Azərbaycan etnoqrafiyası.Üç cilddə. II cild.Bakı, "Şərq-Qərb", 2007, 384 s.
4. Azərbaycan etnoqrafiyası, Bakı: Elm, 1988, 1 c. 454 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı, "Elm", 2007. 608 s. 24 s. illüstrasiya.
6. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı (metal məmulatı və zərgərlik). Bakı, 1966. 35 s.
7. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007, 160 s. + 112 səh. (illüst.)
8. Əhmədov Ə.K. "Dədə Qorqud" dastanında bəzi geyimlər haqqında. Azərb. SSR EA Məruzələri. XXXV c, №2, 1979.
9. Əliyev İ. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. Bakı, Elm,1993. 284 s.
10. Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Elm nəşriyyatı. Bakı, 1978. 51 s.
11. Fətullayev Ş. Gəncə abidələri. Gənclik, 1969. 100 s.
12. Qasımov X. S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, 448 s.
13. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 1999, 323 s.
14. Rəcəbova B. Ə.Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər) / Arxeoloji və etnoqrafik materiallar əsasında. Bakı, Elm 2000. 135 s.

УДК 94(479.24)

*Самира Алиага кызы Гасымова*
*Гянджинское отделение НАНА*
*АГАУ Общественных дисциплин*

О РАЗВИТИИ ГЯНДЖИНСКОГО ЮВЕЛИРНОГО ИСКУССТВА И НЕКОТОРЫХ ИСПОЛЬЗУЕМЫХ МЕТОДАХ ПРОИЗВОДСТВА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, декоративно-прикладной вид искусства, ювелирное искусство, методы производства, археологические исследования

В статье рассматривается о развитии ювелирного искусства в Гяндже и некоторых используемых методах производства. На основе письменных источников и образцов декоративно-прикладного искусства, полученных в ходе археологических исследований, установлено, что ювелирное дело, являющееся одной из развитых областей декоративно-прикладного искусства, зародилось в Гяндже еще в древние времена и продолжало свое развитие наряду с другими видами искусства в средние века. Множество образцов ювелирных изделий (а также предметов быта), найденных при археологических раскопках средневекового города Гянджи, разнообразие ювелирных изделий и используемых методов производства свидетельствуют о высоком мастерстве городских мастеров. Изящные шейные, нагрудные и головные украшения, изготовленные мастерами Гянджи, которая в середине XIX - начале XX века была центром ювелирного искусства, и по сей день завораживают людей.

UDC 94(479.24)

*Samira Aliaga Gasimova*
*Ganja Branch of ANAS*
*ASAU, Department of Social Sciences*

ABOUT THE DEVELOPMENT OF GANJA JEWELRY ART AND SOME OF THE PRODUCTION METHODS USED
*SUMMARY*

*Key words:* Ganja, decorative and applied art, jewelry art, production methods, archaeological research

The article discusses the development of jewelry art in Ganja and some of the production methods used. Based on written sources and decorative samples obtained during archaeological research, it has been determined that jewelry, one of the developed fields of decorative and applied art, originated in Ganja since ancient times and continued its development along with other fields of art during the Middle Ages. Numerous examples of jewelry art (as well as household items) found during archaeological excavations at the site of the medieval city of Ganja, the variety of jewelry art products and the production methods used indicate the high craftsmanship of the city's craftsmen. The intricate neck, chest, and head ornaments made by craftsmen in Ganja, a jewelry center in the middle of XIX and early XX centuries, fascinate people to this day.

***Daxil oldu: 08.07.2025-ci il***